*Hüseynov İlqar Həsrət oğlu,*
*kulturologiya elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət Mədəniyyət və*
*İncəsənət Universiteti*
*Email: ilqar.huseynov.65@inbox.ru*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏ TURİZMİN BƏRPASI

Sovet hakimiyyəti dövründə Qarabağ və ona bitişik olan rayonların ərazilərində çoxlu sayda sanatoriya-kurort, istirahət-əyləncə və mədəni asudə vaxt mərkəzləri mövcud idi. Lakin qeyd edək ki, 1988-ci ildən etibarən vəhşi erməni vandalizmi nəticəsində bu mədəni mərkəzlərin əməli fəaliyyəti demək olar ki, çökdü və iflic vəziyyətinə düşdü. Kəlbəcərdə "İstisu" sanatoriyası, Zəngilanda termal bulaqlar, Şuşada Turşsu və Şirlan mineral suları, Qarabağın istirahət və turizm mərkəzləri və o cümlədən bölgənin bütün infrastrukturu öz fəaliyyətini məcburən dayandırdı. Təəssüflər olsun ki, bütün bu sanatoriya-kurort və müalicəvi tibbi mərkəzlərin çökməsi məhz dünya ölkələrinin gözü qarşısında baş verdi. Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam, Şuşa, Kəlbəcər, Laçın və ona bitişik olan digər ətraf bölgələr də 30 il ərzində qanlı müharibənin canlı şahidinə çevrildilər. Müharibə şəhidsiz ötüşmədi. Erməni vandalları Qarabağ torpaqlarını Naqasaki və Xirosimaya çevirdilər. Yalnız 2020-ci ildən etibarən torpaqlarımız vəhşi erməni vandallarının əlindən azad edildikdən sonra Qarabağın zəngin təbii sərvətləri, unikal iqlimi, insanı məftun edən füsunkar təbiəti və əsrarəngiz gözəllikləri yenidən özünə qayıtdı. Quruculuq və bərpa işlərinə başlanıldı. İnvestisiya axını gücləndi və xarici ölkə sərmayədarlarının və investorların diqqəti Qarabağa yönəldi. O cümlədən də, Cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən regionların sosial-iqtisadi inkişafı ilə bağlı "Milli strategiya" proqramı (2021-2030-cü illər) turizmin inkişaf etdirilməsi üçün yeni real imkanlar və gerçəkliklər yaratdı. Strateji əhəmiyyətli yüksəklikdə yerləşən şəhər və rayonlarımız, habelə milli mədəniyyətimizi əks etdirən möhtəşəm tarixi mədəni abidələr, tikililər və digər milli sərvətlərimiz və mədəni irs nümunələri turizm infrastrukturunun inkişaf etdirilməsi üçün başlıca mənbəyə çevrildi.

Bu gün dəniz səviyyəsindən təqribən 1300-1600 metr yüksəklikdə yerləşən türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhəri özünəməxsus iqlimi, təbiəti, mineral bulaqları, füsunkar təbii gözəllikləri və mədəni irsi ilə dünya turistlərinin diqqətini özünə cəlb edir. Şuşa, Kəlbəcər və Laçın bölgələri müalicəvi turizm potensialı baxımından Davos və ya Kislovodsk, Soçi, Karlovo-Vari kimi dünyanın məşhur sanatoriya-kurort mərkəzləri ilə müqayisə oluna bilər. Hələ qədim zamanlarda Şuşanın məftunedici təbiəti, təmiz havası və mineral bulaq suları insanları bir çox xəstəliklərdən qorumaqla yanaşı, həm də qan azlığında, vərəm, diabet(şəkər), mədə-bağırsaq və bir çox başqa xəstəliklərin müalicəsində istifadə olunmağa başladı.

Əgər tarixə nəzər salsaq, görərik ki, XX əsrin ortalarında Şuşa şəhərinin sanatoriya-kurort mərkəzi kimi inkişaf etdirilməsi haqqında xüsusi qərar qəbul edilmiş, burada sanatoriya-kurort və asudə vaxt mərkəzləri inşa edilmişdi. XX əsrin 60-cı illərindən başlayaraq Şuşaya SSRİ-nin bütün keçmiş respublikalarından turistlər axışmağa başladı. "Hələ 1964-cü ildə SSRİ hökuməti Bakıda kurortoloq və fizioterapevtlərin ümumittifaq qurultayını keçirmişdi. Bu tədbirdə xarici ölkələrin və Sovet İttifaqının

görkəmli alimləri iştirak etmişdilər. Azərbaycan alimlərinin Şuşa kurortu, xüsusən onun unikal iqlimi və müalicəvi havasının xüsusiyyətləri haqqında məruzələri qurultay iştirakçılarında böyük maraq doğurmuşdu.” (1, səh.11) 1967-ci ildə Şirlan-Şuşa mineral su xətti çəkildikdən sonra şəhər iqlim-balneoloji kurort mərkəzi kimi də məşhurlaşdı. Şuşa qalası, Qarabağ xan sarayı, Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Cıdır düzü, Çətir şəlaləsi, İsa bulağı və digər mədəniyyət abidələri Şuşaya xüsusi gözəllik və təravət gətirdı və turist axınını xeyli dərəcədə sürətləndirdi.

Ümumiyyətlə, Qarabağın bütün şəhərləri istirahət və ekskursiyaların təşkili üçün olduqca əlverişlidir. “Kəlbəcərin turizm sahəsinin inkişafi üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral sulari iqtisadiyyatın inkişafı üçün böyük əhəmiyyətə malikdir. Buranın Yuxarı İstisu, Aşağı İstisu, kimi çox böyük müalicəvi təsirə malik mineral su yataqları da vardır.” (2) Qarabağ torpağının digər təbii sərvəti Kəlbəcər rayonunda olan İstisu mineral bulağı və kurortudur. Axmaxi kurqanları, Böyük Arran-alban monastırı, Çərəkdar alban monastırı, Gəncəsər alban monastırı, Harva alban kilsəsi, Havaptux alban monastırı, Xaçın knyaz sarayı, Xatirəvəng alban monastırı, Xilaskar alban kilsəsi (Yayıcı), Xudavəng alban monastırı, Kolatağ alban monastırı, Qırmızı daş alban monastırı, Vaquas alban monastırı, Akan qalası, Comərd qalası, Xanabert qalası, Qaxaç qalası, Qalaboynu qalası, Lex qalası, Zar mağara düşərgəsi və sairləri Kəlbəcərin tarixi-memarlıq abidələrinə ən gözəl örnəkdir.

Qarabağın coğrafiyası, tarixi mədəni irsi, təbii görməli yerləri biznes və turizm forumlarında iştirak edən investorların və sahibkarların diqqətini özünə cəlb etməklə yanaşı, həm də mədəniyyətimizin inkişafına və inteqrasiya prosesinə böyük töhfə verir. Dağ silsilələri, arxeoloji ərazilər, qədim mağaralar və füsunkar təbii gözəlliklərə malik ərazilər hər zaman turistlərin diqqətini özünə cəlb etmişdir. İşğal dövründə vəhşi erməni vandalları tərəfindən bölgənin infrastrukturuna, qədim tarixi-mədəniyyət abidələrinə ciddi ziyan dəyərək misli görülməmiş vəhşiliklər həyata keçirilmişdir. Erməni silahlı qüvvələri burada tarixi tikililəri, o cümlədən məscidlərimizi viran qoyduqdan sonra demək olar ki, bütün qəbirstanlıqlarımızı dağıtmış, mövcud infrastrukturu məhv etmişlər. Bu əraziləri yalnız 2020-ci ildə ”Dəmir Yumruq” əməliyyatı nəticəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Azərbaycan ordusu geri ala bildi və bu ərazilərdə yenidən həyat canlanmağa başladı, bərpa və quruculuq işlərinə başlanıldı. Ağdamda yerləşən Cümə məscidinin bərpası da məhz elə bu qəbildən olan işlər sırasındadır. Hələ 1868-1870-ci illərdə memar Kərbəlayi Səfi Xan Qarabaği tərəfindən tikilən bu məscid mövcud işğal dövründə Ağdamda dağıdılmayan yeganə binadır. Qarabağ müharibəsi zamanı Cümə məscidindən başqa Ağdamda yerləşən bütün binalar viran edilmişdir. İki minarəsi və bir günbəzi olan bu məscid hələ Qarabağ xanlığı dövründə əhalinin ibadət etməsi üçün inşa edilmişdi. 44 günlük müharibədən sonra Ağdam torpaqları öz azadlığına və istiqlaliyyətinə qovuşdu. 23 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam məscidini ziyarət etdilər. Həmçinin, ölkə başçısı Məkkədən gətirilmiş “Quranı-Kərim”i də məscidə hədiyyə etdi. Heydər Əliyev Fondunun tapşırığına uyğun olaraq Avstriyanın “Atelier Erich Pummer GesmbH” şirkətinin rəhbəri, memar Erix Pummer Ağdam məscidində olarkən, onun mövcud vəziyyətini öyrənmiş və bu tarixi dini abidəni yüksək qiymətləndirmişdir. Hazırda Heydər

Əliyev Fondu tərəfindən Ağdam məscidində ciddi bərpa-restavrasiya işləri aparılır. 14 fevral 2022-ci ildə məscidi növbəti dəfə ziyarət edən ölkə başçısı bu məsələ ilə bağlı qeyd etmişdir ki, "Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhər-ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlayıb. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür." (3)

20 oktyabr 2020-ci ildə azad edilən Zəngilan rayonunda "ağıllı kənd" layihəsi reallaşdırıldı. "Ağıllı kənd" pilot layihə kimi Zəngilan rayonunun Ağalı-1, Ağalı-2 və Ağalı-3 kəndlərində həyata keçirilir. Bu layihə mənzil sektoru, istehsal sektorları, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji kimi beş komponenti özündə ehtiva edir. 20 oktyabr 2021-ci ildə bölgədə səfərdə olan dövlət başçısı burada "Ağıllı kənd" layihəsi çərçivəsində həyata keçirilən işlərlə yaxından tanış olmuşdur. Müvafiq layihənin icrası 110 hektardan çox ərazini əhatə edir. "İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb." (4)

Şərqi Zəngəzur iqtisadi rayonunun qapısı olan Zəngilan rayonu tarixi-memarlıq abidələri baxımından olduqca zəngindir. Rayonun Məmmədbəyli kəndində inşa edilən türbə də bu tarixi abidələrdən biridir. Memar Yəhya ibn Məhəmməd əl-Hac tərəfindən 1305-ci ildə İpək Yolu üzərində tikilən bu türbənin ölçüləri 2,95 x 3,30 metr olan düzbucaqlı formadadır. Türbənin girişi qərb hissəsində yerləşir. Qapının eni 76 sm, hündürlüyü isə 88 sm-dir. İslam qaydalarına görə, məqbərəyə giriş 1,20 metrdən çox olmamalıdır ki, içəri girən şəxs mərhumun xatirəsinə baş əysin. 1975-ci ildə məqbərənin yeraltı hissəsində qazıntı işləri aparılmış, nəticədə bu qəbir aşkar edilmişdir.

Cəbrayıl rayonunda yerləşən tarixi-memarlıq abidələri bu gün ölkəyə gələn xarici turistlərin diqqətini özünə cəlb edir. Belə ki, 1027-ci ildə Araz çayı üzərində inşa edilən Xudafərin körpüsü turistlərin böyük marağına səbəb olur. Buradakı inşa edilən Xudafərin körpüləri bir-birindən 800 m aralı məsafədə yerləşir. Onlardan biri, 15 aşırımlı böyük körpü işlək vəziyyətindədir, ikincisi, 11 aşırımlı kiçik körpü isə dağıl-mış formadadır. Cəmi üç orta aşırımı qalan ikinci körpüyə xalq arasında "sınıq körpü" də deyirlər. 15 aşırımlı körpünün 200 m. uzunluğu, 4,5 m. eni, 11 aşırımlı körpünün isə 130 m. uzunluğu və 6 m. eni vardır. Böyük körpünün ən hündür nöqtəsi su səviyyəsindən 10 m hündürlükdədir. Suyun səviyyəsi qalxdıqda körpünün dayaqlarını qoruyan dalğaqıranlar planda üçbucaqlıdır və çay daşından tikilmişdir. Arxa tərəfdə dalğaqıranların yarımdairəvi konturları vardır. Kiçik körpü də böyük körpü kimi, dayaq kimi qayalıq ucluqlardan istifadə edir və eyni şəkildə müxtəlif arakəsmə ölçülərinə malikdir. Çayın orta hissəsində arxlar daha uzun və müvafiq olaraq daha hündür, sahillərə yaxın olanda isə həm eninə, həm də hündürlüyünə görə aralıqlar daha kiçik olur. Xudafərin körpüləri ilə yanaşı, Cəbrayıl rayonunda yerləşən Ağgüney, Çatandaş dağı, Gəyan, Hacı Qaraman ocağı, Qız qalası (Cəbrayıl), Xudayarlı türbələri, Mazan nənə

türbəsi, Şıx Baba türbəsi (Cəbrayıl) və s. obyektlər turizm potensialı baxımından önəmlidir və dünya ictimaiyyətinin diqqətini özünə cəlb edir.

II Qarabağ müharibəsi vaxtı vəhşi erməni vandalları tərəfindən işğal edilən Cəbrayıl rayonu 4 oktyabr 2020-ci ildə azad edilmişdir. 16 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev milli dəyərimiz olan Azərbaycan bayrağını Xudafərin körpüsü üzərində dalğalandırdı. "Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi." (5) Gün gələcək bayrağımız Xocalıda, Xankəndində, Ağdərədə, Əskəranda qürurla dalğalanacaq. "Nəyin nə zaman olacağını özüm hamıdan yaxşı bilirəm"-deyən cənab Prezident İlham Əliyev mövcud məsələnin həllini də yəqin ki, özü hamıdan yaxşı bilir.

17 oktyabr 2020-ci il tarixində işğaldan azad edilən Füzuli rayonunda yerləşən tarixi-mədəniyyət abidələri içərisində Azıx mağarası, Günəştəpə yaşayış yeri, Qarğabazar karvansarayı, Qarğabazar türbəsi, Meynətəpə, Arğalı türbəsi, Mirəli türbəsi, Sofi Həsən türbəsi, Şeyx Baba türbəsi, Şeyx İbrahim türbəsi, Hacı Ələkbər məscidi, Şah Abbas məscidi (Füzuli) və başqalarını mədəni irs nümunəsi kimi xüsusi qeyd etmək olar. Bu abidələr ekskursiya və turizmin inkişafı üçün bu gün olduqca əhəmiyyətlidir.

26 oktyabr 2021-ci ildə rəsmi açılışı olan Füzuli Beynəlxalq Hava Limanı Qarabağın turizm potensialının inkişafında böyük töhfə oldu. Bu barədə Baş nazir Əli Əsədovun imzaladığı sərəncamda qeyd edilirdi ki, "Füzuli rayonunda tikintisi başa çatdırılmış beynəlxalq uçuşları yerinə yetirmək üçün müvafiq standartlara cavab verən Füzuli Hava Limanına beynəlxalq status verilsin." (6) Mövcud sərəncamdan sonra ölkədə turizmin inkişafı prioritet istiqamətlərdən birinə çevrildi. Turizmin yeni infrastrukturu formalaşmağa başladı və bölgəyə investisiya və sərmayə axını sürətləndi.

Laçın rayonundakı Ağoğlan monastırı, Alı Xəlifə ocağı, Araxış sovməəsi, Dəmirovlu pir məbədi, Güllü qəbir piri, Həmzə Sultan sarayı, Qarasaqqal sovməəsi, Minkənd bazilikası, Piçənis məscidi, Seyid Hüseyn ağa ziyarətgahı, Seyidlər körpüsü, Şəlvə sovməəsi, Uşaq qalası, Varazqun məbədi, Çalğıqala və s. bu kimi tarixi abidələr və tikililər mədəniyyətimizin və mənəviyyatımızın mühüm bir parçasıdır. 1 dekabr 2020-ci ildə işğaldan azad edilən Laçın rayonu hazırda coğrafi baxımdan turizmin inkişafı üçün ən əhəmiyyətli və vacibli olan potensial bölgələrdən biri hesab olunur. Xüsusən də, ekoloji turizmin inkişafı üçün burada bütün infrastruktur mövcuddur. Gələcəkdə bu bölgədə dövlətin milli strategiyasına uyğun olaraq turizmin yeni inkişaf istiqamətlərini görə biləcəyik.

Hazırda Qarabağ bölgəsi həm ölkədaxili, həm də xarici turistlərin böyük marağına səbəb olur. Mədəni və istirahət resurslarına görə bölgədə ekoturizmi inkişaf etdirmək olduqca əlverişli və əhəmiyyətlidir. Məsələ burasındadır ki, bölgə təkcə coğrafi baxımından deyil, həm də tarixi-memarlıq abidələrinin zənginliyi baxımından da diqqəti özünə cəlb edir. Burada mövcud mədəni irs və tarixi mədəniyyət abidələri gələcəkdə məşhur turizm marşrutlarına çevrilə bilər. İşğal illərində dağıdılan mədəni-tarixi abidələrin bərpasından sonra inanırıq ki, bölgəyə ekskursiya və turizm gəzintiləri təşkil etmək olduqca vacibli və əhəmiyyətli olacaqdır. Təbii ki, bərpa işlərindən sonra Qarabağın turizm potensialından düzgün istifadə etmək Azərbaycana böyük investisiya axı-

nı və iqtisadi səmərə verəcəkdir. Turizm baxımından Qarabağın müsbət imicini yaratmaq və onu beynəlxalq arenada təbliğ etmək müasir dövrümüz üçün olduqca əhəmiyyətlidir və böyük aktuallıq kəsb edir. Hazırda Qarabağda turizmin yaxşılaşdırılması və inkişafı istiqamətində geniş və çoxmiqyaslı, məqsədyönlü işlər aparılır. Turizm sahəsində əsas məqsəd isə məhz turizmin inkişafı yolu ilə Qarabağın məşhur turizm məkanına çevrilməsi və milli gəlirin artırılması prosesinin sürətləndirilməsidir.

Qeyd etmək lazımdır ki, hazırda işğaldan azad edilmiş bölgələri ziyarət etmək istəyən vətəndaşlar üçün ölkəmizdə "Yolumuzqarabaga.az" portalı istifadəyə verilmişdir. Onu da deyək ki, 24 yanvar 2022-ci il tarixindən başlayaraq Ağdam və Şuşa şəhərləri istiqamətində avtobus marşrutları təşkil olunmuşdur. "Bakı-Şuşa-Bakı" marşrutunun və "Bakı-Ağdam-Bakı" marşrutunun yaradılması məhz uzun illərin həsrətinə son qoydu, ölkədaxili və beynəlxalq turizmin inkişafına böyük təkan verdi. Həmçinin yanvarın 24-dən "Əhmədbəyli-Şuşa", "Füzuli Beynəlxalq Hava Limanı-Şuşa", "Bərdə-Ağdam" istiqamətində də turist marşrutları təşkil olundu və insanların böyük marağına səbəb oldu. Bu gün işğaldan azad edilmiş ərazilərə marşrutlar üzrə biletləri "Yolumuz Qarabağa" portalından əldə etmək mümkündür. Vətəndaşlar portala daxil olduqdan sonra "ASAN login" vasitəsi ilə biletləri əldə edə bilirlər." (7) "Yolumuzqarabaga.az" portalı vasitəsilə Ağdama səfər edən vətəndaşlar bu rayonda yerləşən möhtəşəm Şahbulaq qalasını və digər tarixi mədəniyyət abidələrini də ziyarət və ekskursiya edə biləcəklər.

Hal-hazırda Qarabağ bölgəsinə təşkil edilən ekskursiyalar və maraqlı turizm gəzintiləri gənclərimizin milli vətənpərvərlik tərbiyəsində və əsl vətəndaş kimi yetişməsində olduqca mühüm rol oynayır. Xüsusən də, bu bölgə əhalinin milli kimlik və milli mənlik şüurunun formalaşmasında xüsusi əhəmiyyətə malikdir. İnanırıq ki, gələcəkdə bu bölgə dünyanın ən möhtəşəm turizm mərkəzlərindən biri olacaq və bütün dünyaya bir pəncərə kimi açılacaq və turistlərin böyük marağına səbəb olacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi də Qarabağ turizminin inkişafına böyük töhfə verəcəkdir. Həm də xarici turistlərin, sərmayədarların və investorların ölkəmizə gəlməsinə şərait yaradacaq və Qarabağı çiçəklənən və zəngin ekskursiya-turizm bölgəsinə çevirəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Ağayev R. Şuşa kurort və istirahət mərkəzi kimi. 525-ci qəzet.- 2021.- 3 aprel.- S.11.
2. https://az.trend.az/ business/3339860.html
3. https://report.az/qarabag/gelen-aydan-agdam-cume-mescidinde-temir-berpa-islerine-start-verilecek/
4. https://president.az/az/articles/view/53631
5. https://apa.az/az/daxili_siyaset/Prezident-Ilham-liyev-Xudafrin-korpusund-Azrbaycan-bayragini-qaldirib-615575
6. https://gunun-nebzi.az/article/az/40935
7. https://azvision.az/news/283110/--yolumuzqarabaga.az-portali-istifadeye-verildi-.html